Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



**Oxu, Şövkət, oxu Şövkət, qoy səsin,**
**Ürəklərdə kaman kimi titrəsin.**

**Xalq artisti Şövşət Ələkbərovanın 100 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2022**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Xalq artisti Şövkət Ələkbərovanın 100 illiyi münasibətilə** mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 37 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

**Bölmə I**

**Həyat və yaradıcılığı**



***Mən oxuduqca yaşamaq, yaşadıqca yaratmaq istəyirəm.***
***Şövkət Ələkbərova***

**Bu gün böyük sənət yolunun yolçusu, milli musiqimizin gözəl ifaçısı, xalq artisti Şövkət Ələkbərova haqqında söz açacağıq. O, Şövkət Ələkbərova ki, ömrünün son illərinə qədər yorulmadan, dayanmadan, həvəslə yeni-yeni zirvələr fəth etdi və bircə an da nəfəs dərmədən belə, bu yolda dayanmadı. Oxuduğu muğamlar, ifa etdiyi əsərlər bir sözlə xanəndənin öz dəsti-xətti .**

Musiqi elə böyük bir aləmdir ki, ona maraq göstərən hər bir kəsə burada yer var. Biri musiqi aləminə bəstəkar kimi, o birisi ifaçı kimi, digəri isə dinləyici kimi gəlir. Lakin bu insanların hamısını musiqiyə olan sonsuz məhəbbət birləşdirir. Musiqi elə bil insanın içində yaşayır: sevinən, kədərlənən, arzuya qovuşan məqamlarında, başqa sözlə desək o, daima bizimlədir.

İnsanın sənətə aidiyyatı elə bir sərvətdir ki, onu ilahi hər kəsə bəxş etmir. Təsadüfi deyil ki, istedada malik olan insanı “Allah tərəfindən seçilmiş”, “taleyin istəklisi” adlandırırlar. Şövkət xanım Ələkbərova məhz Allah tərəfindən qeyd olunan insanlardandır. Onun baxışında olan dalğınlıq, üzündə olan sakitlik, həyat dolu gülüşü, xanım təbiəti və insaniyyəti səsinin

gözəlliyi qədər təkrarolunmazdır. Şövkət xanımın şəxsiyyətində dahi rus yazıçısı Anton Pavloviç Çexovun dediyi kimi, insanın zahiriynən batilinin gözəlliyi və həmahəngliyi öz əksini tapır. **ŞÖVKƏT xanım ƏLƏKBƏROVA...** Bu ad xalqımızın qəlbində həzin bir mahnı kimi səslənir...

1922-ci il oktyabrın 20-də Bakının Mirzə Fətəli küçəsində yerləşən bir evdə, zəhmətkeş insan - Feyzulla kişinin ailəsində Mirbağır ağanın nəvəsi olan əsl bakılı qızı dünyaya göz açdı. Bu körpə - gələcəyin dahi müğənnisi Şövkət Ələkbərova idi. Payızda həyata qədəm qoymasına baxmayaraq Şövkət xanımın siması bahar təravəti ilə yoğrulmuşdu. Bu bahar təravəti sonradan Şövkət xanımın yaradıcılığına da bahar nəfəsi gətirdi.

Şövkət xanımın atası Feyzulla kişi fəhlə idi, amma buna baxmayaraq sənətə pərəstiş edən bir insan idi. Həyat yoldaşı Hökümə xanımın tar çalmağından fərəh duyurdu. Uşağlarına da musiqi savadı verməyə çalışırdı bu insan. Böyük oğlu Ələkbər tar çalırdı, kiçik oğlu Paşa – qaval. Amma qızı Şövkət üçün ata ürəyində bir arzu var idi - qızını müğənni görmək arzusu, amma səs elə bir nemət idi ki, onu valideyn istəsə belə övlada verə bilməzdi.

Atası Feyzulla kişinin musiqiyə olan ehtiramı, anası Hökumə xanımın çaldığı tardan süzülən tərənələr balaca Şövkətdə musiqiyə böyük həvəs oyatdılar. Şövkətin anası Hökümə xanım qızını kamança sinfinə verir və kamança çalmağa meylli olan Şövkət böyük həvəslə dərslərə gedir. Günlər, aylar ötüşür ... Günlərin bir günü Feyzulla kişinin arzusu çin olur, Allah onun balaca qızına səs verdi. Evlərində gözəl bir trio – ailə triosu yarandı: Şövkət oxuyurdu, qardaşları isə onu müşaiyət edirdilər. Beləliklə, musiqi dünyası Şövkətin qarşısında açılmağa başladı və o, bu sehrli dünyanın geniş yollarında ilk addımlarını atdı. Büllur dağ suları kimi çağlayan səs bəxş etmişdi ilahi Şövkət xanıma və o, əsil xanım kimi davranmışdır bu Allah vergisi ilə. Elə ona görə də Şövkət xanımın səs bulağı yarım əsrdən çox çağladı.

Yeniyetmə Şövkətin ilk dəfə böyük səhnəyə çıxması təsadüfi, hətta özü üçün də gözlənilməz oldu. Anası Hökumə xanım qadınlardan ibarət orkestrdə tar çalırdı və Şövkət tez-tez anası ilə məşqlərə və konsertlərə gedirdi. Günlərin bir günü həmin orkestr Dağüstü parkda konsertqabağı məşq edirdi. Konsertin iştirakçılarından biri gəlməmişdi. Birdən dirijorun gözü vurğun baxışlarla səhnədə olanları müşahidə edən ucaboy nərmənazik bir qıza sataşdı. Bu, Hökumə xanımın qızı Şövkət idi. Dirijor ona məşqə gəlməyən müğənnini əvəz etməyi təklif etdi və Şövkət içindən gələn duyğulara bürünmüş "Gəlmə, gəlmə" mahnısını ifa etdi. Hamının üz-gözü gülürdü. Bu müqəddəs dəqiqələr idi... məhz bu dəqiqələrdə dünyaya yeni bir müğənni gəldi və gənc Şövkətin ifasını eşidən insanlar bu tarixi hadisənin şahidi oldular. Mahnı bitdi, Şövkət isə donub qalmışdı. Gənc qız gördüklərinə inanmırdı, axı o, çoxdan bu dəqiqələrin arzusunda idi. Şövkət Ələkbərovanın yaradıcılığının birinci dövrü belə başladı. Şövkət xanımın etirafına görə o, on dörd yaşında ikən kamança çalmış, on altı yaşından isə müğənniliyə başlamışdır. O, özfəaliyyətdə ilk addımlarını "Müəllimlər evi" nin klubunda atmışdı. Daha sonra isə "Kəndlilər evi" nin öz fəaliyyət dərnəyinə dəvət almışdı.

1937-ci il xalqın, dövlətin həyatında ağır zaman kimi yaddaşlara həkk olunmuşdu. Amma boz buludlar asimanı bürüdüyünə baxmayaraq, həyat davam edirdi və musiqi də insan həyatının tərkib hissəsi kimi inkişafını davam edirdi.

Həmin vaxt Bakıda Azərbaycan Respublikası Həmkarlar İttifaqının bədii özfəaliyyət kollektivlərinə baxış keçirildi və Şövkət Ələkbərova həmin baxışın qalibi elan edildi.

Bu tədbirin yekun konserti 1938-ci ilin əvvəllərində Opera və Balet teatrının möhtəşəm səhnəsində keçirilirdi.
Münsiflər heyətində Üzeyir bəy Hacıbəyov, Bülbül, Səid Rüstəmov və başqaları əyləşmişdilər. Şövkət Ələkbərova "Qarabağ şikəstəsi"ni böyük məharətlə ifa etdi.

Bu qızın çıxışını çox bəyənən və xüsusi olaraq qeyd edən Üzeyir bəy kimi sənət nəhəngi gənc Şövkəti filarmoniyaya yanına çağırtdırır və işə götürür. Həmin gündən Şövkət Ələkbərovanın professional səhnə həyatı başlayır.

Beləliklə Şövkət Ələkbərova 1938-ci ildən Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və rəqs ansamblının solisti oldu və bu vəzifədə 1945-ci ilə qədər çalışdı. 1945-ci ildən müğənni Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının, sonralar isə Azkonsertin solisti idi...

Tale gənc müğənninin üzünə güldü. Şövkət Ələkbərova professional sənət yolunda ürəkli addımlamaq üçün Azərbaycan musiqi sənətinin zirvəsinə ucalan sənətkarların xeyir-duasını aldı. Bu böyük insanlar ona özünə inam hissi aşıladılar, lakin bu heç də gənc müğənninin özündən razı olmasına gətirib çıxarmadı. O, ömrü-boyu həmişə özünə qarşı hədsiz dərəcədə tələbkar olmuşdu. Sənətdə əldə etdiyi nəticələr buna sübutdur.

Təbiətin Şövkət xanımı "solist" yaratdığına baxmayaraq o, sənətdə ilk addımlarını xatırlayarkən xorda oxuduğu illəri minnətdarlıqla yad edərdi: "...dördsəsli xorda oxumağım mənə çox şey veribdir. Bu gün müxtəlif üslublu, müxtəlif dəst-xətli ansamblların, orkestrlərin müşayiətilə oxuya bildiyim üçün, ilk növbədə Üzeyir bəyə, onun yaratdığı xora borcluyam. Musiqi ilə məşğul olmayan adamlar üçün bəlkə də orkestrlə oxumaq çox asan görünür. Lakin bu belə deyildir. Trio ilə oxumaqla simfonik orkestrin müşayiətilə oxumağın arasında yerlə-göy qədər fərq var. Xorda səsin imkanları genişlənir, səs cilalanır, "üzüyola", həm də ifadəli olur. ...görün mən xorda nələr oxumuşam? "Yar gülə-gülə", "Aman nənə", "Ay ləli", "Tello", "Ay bəri bax", "Ləli" xalq mahnılarını, Üzeyir Hacıbəyovun "Kolxoz çöllərində", "Komsomolçu qız", "Komsomolçu", "Qızıl əsgər" mahnılarını.

Məhz bu sənət ocağında Şövkət xanım ilk dəfə on altı yaşında olarkən professional ifa tərzinə yiyələnərək bir çox xalq mahnılarını ifa etdi. Cavan müğənni üçün bu böyük şərəf idi, axı

onun işlədiyi kollektivin konsertlərinə Üzeyir bəy özü dirijorluq edirdi. Belə bir böyük şəxsiyyətlə daima təmasda olmaq, onun qeydlərini və nəsihətlərini eşitmək gənc müğənni üçün böyük sənət və həyat məktəbi idi... Çoxşaxəli yaradıcılığına, çoxsaylı yetirmələrinə diqqətlə yanaşdığı kimi, Üzeyir bəy yaratdığı bu kollektivin repertuarının da daima genişlənməsinə çalışırdı. O, məşhur xalq mahnılarından: "Aman nənə", "Ay bəri bax", "Ay lolo" və başqalarını xor və orkestr üçün işləmişdir, həmçinin yaşadığı dövrü səciyyələndirən mahnılar da yazmışdı.

Üzeyir bəy Şövkət Ələkbərovanın səsini yüksək qiymətləndirirdi, onun əsl professional olması üçün qiymətsiz məsləhətlər verirdi və Şövkət xanım ömrü boyu dahi sənətkarın dərslərini unutmurdu. Onun haqqında danışarkən həmişə Üzeyir bəyin adı qarşısına "dayı" kəlməsini işlədərdi. Bu da təsadüfi deyil, çünki Üzeyir bəyin böyüklüyü elə onda idi ki, hər bir azərbaycanlıya "ata", "əmi", "dayı" olmağı bacaran insan idi. Şövkət xanım Üzeyir bəyi belə xatırlayardı: "- Üzeyir dayı mənim səsimi çox xoşlayardı, həmişə mənə "özündən, səsindən muğayat ol", - deyərdi. O, böyük ürək sahibiydi, məktəb idi, məktəb! Bizə oxumağın, yana-yana oxumağın, çalmağın, bir sözlə, sənətin hər sirrini öyrədərdi".

Şövkət xanımı Üzeyir bəylə doğmalaşdıran bir tarixi fakt da var. Üzeyir bəyin dayısı Ağalar bəy Əliverdibəyov həm dahi bəstəkarın ilk musiqi müəllimi, həm də Şövkət xanımın ilk muğamat müəllimi olmuşdur.

Professional vokal dərslərini Şövkət xanım tanınmış opera müğənnisi Hüseynqulu Sarabskidən alıb.

Məlumdur ki, "a capella" ifaçılıq üsulu çox mürəkkəbdir və müğənnidən maksimum bacarıq tələb edir. Çünki ancaq məlahətli, geniş palitraya malik səs müşayiətsiz dinlənilərkən tam və gözəl səslənə bilər. Şövkət xanımın səsi də belə səslərdən idi. Şövkət Ələkbərova sevimli müəllimi Hüseynqulu Sarabskini yad edərək, deyirdi ki, müəllimi "xanəndəni həm də aktyor görmək istəyirdi".

Çalışqan tələbə Sarabski kimi böyük müğənni və aktyorun məktəbinin yetirməsi olduğundan fərəh duyurdu və bu tövsiyyəni bütün sənət yolu boyu qulağında sırğa edərək, müəlliminin göstərdiyi yolla zirvəyə ucalmışdı. Bu yolda Bülbül, Xan Şuşinski, Zülfi Adıgözəlov kimi mahir ifaçılar Şövkət xanıma bələdçilik etmişlər.

Bu gün də Şövkət xanımın ifasını lent yazılarında izləyəndə bu insanın səsinin, mimikasının, hərəkətlərinin, geyiminin nə qədər sıx təmasda olduqlarının şahidi oluruq. Şövkət Ələkbərova simasında fitri istedadla əməyin birliyi gözə çarpır və məhz bu vəhdətdən müğənninin böyüklüyü yaranır.

Böyük Vətən Müharibəsinin ilk günü Şövkət xanımı Bakıdan Moskvaya gedən qatarda haqladı. Həmin zaman müğənni bir qrup həmkarı ilə SSRİ-nin paytaxtında keçiriləcək Ümumittifaq müsabiqəsində iştirak etmək üçün gedirdi.

Müharibə illəri müğənnin yaradıcılığının ikinci mərhələsinə təsadüf edir. Müharibənin ilk günlərində Üzeyir bəy bəstəkarları yanına toplayıb, özü başda olmaqla müharibə mövzusunda əsərlər yaratmağa çağırdı. Böyük müəllimin bu çağırışı, demək olar ki, tələb kimi səsləndi. Beləliklə, 1941-45-ci illərdə Azərbaycanda yeni bir musiqi – hərbi illərin musiqisi yarandı. Hərbi-vətənpərvərlik mövzusunda yazılan hər bir əsər - istər irihəcmli - operalar, simfoniyalar, kantatalar və oratoriyalar, istərsə də mahnı janrının nümunələri, bu əsərlərin hamısı xalqımızı igidliyə, mərdliyə, vətən və dost qədrini bilməyə çağırırdı. Məhz bu illərdə Şövkət xanımın repertuarı tam yeniləşir. Artıq müğənnini tez-tez qospitallarda, hərbi hissələrdə, dəmir yolu stansiyalarında əsgərləri cəbhəyə yola saldıqda verilən konsertlərdə iştirak edən görmək olardı. O, Üzeyir Hacıbəyovun "Şəfqət bacısı", "Addımla əsgər", "Yaxşı Yol" və başqa bəstəkarların mahnılarını ifa edirdi.

Şövkət xanımın etirafına görə hətta bir gün belə olub ki o, Üzeyir bəyin "Addımla əsgər" mahnısını gün ərzində 53 dəfə oxuyub:

Addımla, addımla əsgər,
Addımlarında şanlı zəfərlər.

Amma buna baxmayaraq, yorğunluq hiss etmirdi Şövkət, çünki mahnıları ilə əsgərləri qələbəyə səsləməyi qarşısına məqsəd qoymuşdu, çünki gözləri önündə müharibədə olan əziz qardaşları Ələkbər, Paşa və Bağır dururdu.

Sonralar da, onilliklər keçməsinə baxmayaraq Şövkət xanım müharibəni həmişə həyatında ağır bir dövr kimi xatırlayırdı.

1943-cü ilin fevral ayında Şövkət Ələkbərova bir dəstə sənət yoldaşları ilə ilk dəfə cəbhəyə getdi. Ukraynanın Staroselsk şəhəri, Stalinqrad. Müharibə vaxtı Şövkət xanım əsgər libasında konsertlər verməklə yanaşı cəbhənin çətinliklərini də görmüşdü. Faşist təyyarələrinin hücumlarını, səngərlərdə gizlənməkləri, qospitallarda yaralıları da görmüşdü. Bu illər ərzində gənc müğənninin gözləri önündə daima əziz qardaşları dururdu. Müğənni, onun ifasını alqışlayan hər bir əsgərdə qardaşlarını görürdü.

Müharibə hələ qurtarmamışdı, lakin cəbhə arxasında həyat davam edirdi, sənət tarixinin saatı bir dəqiqə belə dayanmırdı. 1944-cü ilin dekabr ayında Tbilisi şəhərində keçirilən Zaqafqaziya respublikalarının musiqi ongünlüyündə Asəf Zeynallı adına Bakı musiqi məktəbində Hüseynqulu Sarabskinin sinfində savad almış Şövkət Ələkbərova da böyük müvəffəqiyyətlə iştirak edir. Müğənninin bu uğuru Üzeyir bəyin həmin dekada haqqında yazdığı məqalələrində öz əksini tapır.

Nəhayət Qələbə günü gəlib çatdı. Sevinc dolu, həyəcanlı bir gün. 1945-ci ilin 9 may günündə hamı sevinirdi, hətta əzizlərini itirən adamların da bir gözü ağlayıb, bir gözü gülürdü. Axı milyonlarla insanların dərdinə son qoyulmuşdu, xalqımız düşməni məğlub edərək qələbə qazanmışdı. Bir çox adamların qapısını döyən kədər Şövkət xanımgilin də qapısını döydü:

qardaşı Ələkbər əbədiyyətə qovuşdu... Müharibə illəri Şövkət xanımın yaradıcılığında xüsusi bir mərhələ oldu. O, müğənni kimi yetişdi, insan kimi bərkidi. Əfsuslar olsun ki, bu nazik, açıq könüllü, yumşaq təbiətli qızın o dəhşətli illərdə oxuduğu gözəl mahnılar ancaq yaddaşlarda qaldı. Axı o zamanlar müğənnilərin səslərini lentə almaq imkanı hələ yaranmamışdı.

Həyat keşməkeşli yollardan ibarətdir. Bu yollardan biri də xalqımızın zəfərlə sonuna çatdığı müharibə yolu idi. Bəli... müharibə bitdi, amma onun ağrı-acısı, törətdiyi müsibətlər hələ bitməmişdir. İnsanlar yeni bir həyat yolunun əvvəlində idilər. Şövkət xanım da xalqımızın şərəfli bir nümayəndəsi kimi yaradıcılığının müharibədən sonrakı dövrünə qədəm qoydu.

1945-ci ildən Şövkət xanım Müslüm Maqomayev adına Azərbaycan Dövlət filarmoniyasında, sonralar isə Azkonsertdə öz fəaliyyətini solist kimi davam etdirdi. Muğənninin "solo" konsertləri dinləyicilərdə ona qarşı böyük rəğbət oyatdı.

Şövkət Ələkbərovanın yaradıcılığında üçüncü mərhələ olan çox önəmli 50-ci illər mərhələsidir. Bu illərdə Şövkət Ələkbərova xalq və bəstəkar mahnılarının "bir nömrəli" ifaçısı kimi tanındı. Müğənni "Qatar", "Şahnaz", "Segah" muğamlarını özünəməxsus tərzdə ifa edirdi və onlara yeni nəfəs gətirirdi. Şövkət xanım "Qarabağ şikəstəsi", "Süsən sünbül", "Dəli Ceyran", "Ay qadası", "Yar gəldi", "Kürdün gözəli", "Ceyran", "Gül açdı" xalq mahnılarını ifa edərkən dinləyicilər onun kövrək qəlbini, incə duyğularını hiss edirdilər.

Yuxarıda qeyd etdiyimiz kimi, 50-ci illər Şövkət xanımın yaradıcılığında çox məhsuldar olmuşdur. Və bunun nəticəsi kimi məhz həmin vaxt müğənni Azərbaycanın Əməkdar (1954) və Xalq (1959) artisti fəxri adlarına layiq görülmüşdü.

Bu onilliyin sonunda (1959) Şövkət xanım öz məharətini SSRI-nin paytaxtı Moskvada, Böyük Teatrın səhnəsində Azərbaycan incəsənəti və ədəbiyyatı ongünlüyü çərçivəsində təşkil olunan konsertdə göstərdi. Müğənninin çıxışları paytaxt tamaşaçılarını da valeh etdi.

Özünü dünyaya sevdirən Azərbaycan müğənnisi Şövkət Ələkbərova öz repertuarına fars, ərəb, türk və başqa dillərdə oxuduğu mahnıları da daxil etmişdi. Qastrol səfərləri müğənni ömrünün bir fəsli kimi tarixdə qalıb, axı bu səfərlərin nəticəsi Azərbaycanı və Azərbaycan musiqisini dünyaya tanıtmaq olub.

Şövkət xanım Rusiya, İran, Əfqanıstan, İraq, Əlcəzair, Suriya, Mərakeş, Tunis, Misir, Şri-Lanka, Hindistan, Çin, Türkiyə, Fransa, İsveçrə, İsveç və Almaniya, Bolqarıstan, Polşa və Çexoslovakiya musiqisevərlərini öz bənzərsiz ifasıyla, ecazkar səsi ilə ovsunlamışdı.

Müğənninin repertuarında "Ənəlhəq", "Füzuli", "Ay işığında", "Oxu gözəl", "Eşqimdə təmənnasızam", "Tellər oynadı", "Küsüb məndən", "Bir könül sındırmışam", "Bayram şamları", "Durnalar", "Oxu tar", "Getmə amandı", "Şəki", "Bakı gecələri", "Qubalı qız", "Dərələr", "Ağ çiçək" kimi ürəklərdə iz qoyan mahnı-kantatalar və mahnılar var idi. Şövkət xanım haqqında bir çox bəstəkarlarımız, o cümlədən Tofiq Quliyev, Arif Məlikov, Cahangir Cahangirov, Ramiz Mirişli və başqaları öz xatirələrini bölüşüblər. Bu sənət adamlarının dediklərində bir ümumi xətt var. O da Şövkət xanımı əsl professional kimi xarakterizə etməkdir. Burada ümumi bir fikirlə də rastlaşırıq: Şövkət Ələkbərova istər xalq lirik mahnılarının, istərsə də bəstəkarlarımızın yaratdıqları lirik mahnıların bənzərsiz ifaçısıdır.

Şövkət xanım yaxşı mənada vaxtın nəbzini tuta bilən müğənni olmuşdur. O, sənətdə nəsillər arasında körpü yaradan bir müğənni idi. Şövkət xanım həmişə təravətli və ecazkar səsilə həm yaşlı nəslin nümayəndələri olan ölməz sənətkarlarımız Səid Rüstəmovun, Qara Qarayevin, Fikrət Əmirovun, Niyazinin, Qənbər Hüseynlinin, Tofiq Quliyevin, Cahangir Cahangirovun, Ağabacı Rzayevanın, Şəfiqə Axundovanın, Zakir Bağırovun və başqalarının əsərlərini, həm də yeni nəsli təmsil edən Emin Sabitoğlu və Polad Bülbüloğlu kimi bəstəkarların mahnılarını eyni məharətlə ifa etmişdir.

Şövkət xanım Azərbaycan xalq musiqisində ənənələrə sadiq qalan və eyni zamanda ənənələr silsiləsini davam etdirən bir şəxsiyyət olmuşdur. O, səhnəyə özünə məxsus ifa tərzi və davranış qaydaları gətirmişdi. Məhz bunlar onu sənət zirvəsinə ucaltdı və əlçatmaz etdi, bunlara görə onun oxuduğu mahnılar xalqımızın tarixi yaddaşına yazıldı, müğənninin sənətini hər bir qəlbi kövrək insana doğma etdi.

Şövkət xanımın repertuarında olan mahnılarda söz, musiqi və ifa bir-birini tamamlayaraq, vəhdət təşkil edirdi. Elə buna görə də, müğənninin ifa etdiyi mahnılar ilk ifadan dinləyicilərin ürəklərinə yol taparaq yaddaşlarda həkk olundu. Şövkət xanımın konsertlərində tamaşaçı salonuna nəzər saldıqda tamaşaçıların dodaqlarının tərpənməsinin şahidi olurduq, çünki müğənninin ifa etdiyi mahnılar dillər əzbəri idi. Musiqidə belə bir məqam var: xalq tərəfindən sevilən mahnılar illər keçdikcə xalq mahnıları kimi qəbul olunurlar. Sözsüz ki, belə mahnıları yaradan sənətkarlar üçün bu böyük xoşbəxtlikdir. Şövkət xanımın ifa etdiyi mahnılar məhz bu qəbildən idi.

Şövkət xanımın yaradıcılığı haqqında hələ geniş analitik təhlilə malik monoqrafiya yazılmasa da, müğənninin sənəti bir çox sənət adamlarını, jurnalistləri onun haqqında fikir yürütməkdən usandırmayıb. Bunun da səbəbi odur ki, Şövkət Ələkbərova şəxsiyyəti yanından biganə keçmək olmaz. Bu sehrli səsin yiyəsi barədə ancaq xoş sözlər demək, xoş təəssüratlar söyləmək olar.

Şövkət xanım o nadir şəxsiyyətlərdəndir ki, sağlığında özü haqqında xoş təəssürat, dünyasını dəyişəndən sonra isə xoş xatirələr qoyub. Bu isə insanın fətx etdiyi ən yüksək zirvədir.

Şövkət xanımın sənətinə pərəstiş edən xalqımızın sevimli, dəyərli bəstəkarlarından olan respublikanın xalq artisti Cahangir Cahangirov müğənni haqqında belə demişdi: “Şövkət Ələkbərovanın səsindən, sənətkarlığından çox danışmaq olar. İndi şöhrət sahibi olan bəstəkarların çoxu ona borcludur. Şövkət Ələkbərova həqiqətən böyük müğənnidi. Belə oxuyanlar tarixdə

az-az yetişir”. Şövkət Ələkbərova haqqında rəsmi olaraq bibilioqrafiya da nəşr olunmayıb. Amma üzdə olan yazıların içində diqqətimizi yazıçı Altay Məmmədovun 1960-cı ilin 24 sentyabrında “Kirovabad kommunisti” qəzetində dərc etdirdiyi “Şövkət Ələkbərovanı dinlərkən” məqaləsi cəlb edir: “Şövkət Ələkbərovanı dinlərkən səsin ecazkar gücünə heyran qalırsan. Bu səs öz gücünü dəniz ləpələrinin pıçıltısından, yaşıl yarpaqların xışıltısından, çeşmələrimizin, gur çaylarımızın, şəlalərimizin musiqisindən, doğma Azərbaycan torpağının füsunkar gözəlliyindən almışdır.

Şövkət Ələkbərovanın rəvan səsində çox aydın, çox səlis bir musiqi var. Elə bil müğənninin sinəsində qüdrətli bir dirijor tərəfindən idarə olunan miniatür bir simfonik orkestr yerləşmişdir. Şövkət Ələkbərova bu gur səsi, bu güclü səsi, bu yumşaq səsi, bu ilıq səsi böyük sənətkarlıq və elmlə idarə edən yüksək mədəniyyətli bir müğənnidir. Onu dinlədikcə müğənnilik sənətinin olduqca böyük gücünə inanırsan; nəğmə müəllifləri – bəstəkar və şair yaddan çıxır. Nəğməkarın odlu nəfəsi şerin sözlərini və musiqisini əridib bir-birinə qatır, sanki şair də, bəstəkar da müğənninin özüdür”.

S.Rüstəmovun “Hardasan”, “Oxu gözəl”, F.Əmirovun “Kor ərəbin mahnısı”, “Gülərəm gülsən”, “Layla”; C.Cahangirovun “Ana”, “Bayram şamları”; Şəfiqə Axundovanın “Şəki”, “Yaradan əllər” kimi mahnıları hələ də yaddaşlarda yenilənir. Bunun əsas səbəbkarı Şövkət xanımdır, çünki o, hər bir ifa etdiyi mahnını əsl mənada yaradaraq, bəstəkarın və şairin əməyini yerə salmır, yaratdıqları sənət incilərini yaşadır.

O dövrdə elə bir bəstəkar tapılmazdı ki, yazdığı mahnını ilk növbədə Şövkət xanıma təqdim etməsin. Şövkət xanım da ustad təcrübəsindən istifadə edərək həmişə bu əsərləri yaşatmağa çalışardı və istəyinə də nail olardı. O zaman yazılan bir çox mahnıların uzun ömürlü olması və bu gün də xalqın ürəyinə yol axtaran müğənnilərimizin Azərbaycan

bəstəkarlarının keçən əsrin 40-60-cı illərində dünyaya gələn mahnılarını sevə-sevə öz repertuarlarına daxil etməsi buna sübutdur.

Azərbaycan muğamlarını və Azərbaycan bəstəkarlarının mahnılarını yaşatmaq Şövkət Ələkbərovanın sənətdə qarşısına qoyduğu əsas məqsəd idi və o, bu məqsədə nail oldu. Şövkət xanımın vallara və kino lentlərinə yazdırdığı mahnılar müğənninin daima yaddaşlarda qalmasına kömək edir və bu mahnıların tarixdə yaşamasına imkan yaradır.

Şövkət Ələkbərova bir çox tanınmış bəstəkarlarımızın yaradıcılığında mühüm rol oynamışdı. Misal kimi təkcə Tofiq Quliyev yaradıcılığını gətirmək kifayətdir. Tofiq müəllimin özü bu barədə belə deyirdi: "Şövkət Ələkbərova Azərbaycan sovet musiqisinin ən görkəmli sənətkarlarından biridir. Təbiət Şövkət Ələkbərovaya gözəl, çox məlahətli səs, istedad bağışlayıb. Bəstəkarların əksəriyyəti çalışır ki, onların yeni mahnılarının ifaçısı Şövkət xanım olsun. Cəsarətlə demək olar ki, bəstəkarlarımızın çoxunu xalqımıza o tanıtmışdır. Mən də özümü xoşbəxt hesab edirəm ki, mahnılarımın ilk ifaçısı Şövkət xanım olub. Mən həmişə çalışmışam ki, mahnılarımı Şövkət xanım oxusun".

Şövkət xanım Tofiq Quliyevin bir çox mahnıları ilə yanaşı, bəstəkarın kinofilmlər ("Bəxtiyar", "Görüş", "Onu bağışlamaq olarmı" və b.) və teatr tamaşaları üçün yazdığı mahnılarının ("Qızılaxtaranlar" operettasından "İlk bahar" mahnısı) da təkrarolunmaz ifaçısı olmuşdur. Şövkət xanımın gördüyü ən mühüm işlərdən biri də gənc nəslin musiqi tərbiyəsi ilə məşğul olmasıydı. Məhz bu iş Şövkət Ələkbərova yaradıcılığının dördüncü dövrünə təsadüf edir. Azərbaycan muğamlarına dərin hörmət bəsləyən və onları qəlbən sevən müğənni bu ehtiram və məhəbbəti gənc nəslə də aşılaya bilmişdi. Böyük müğənni yaradıcı gənc nəslin nümayəndələrində öz gəncliyini görərək, onların sənət və həyat himayəsinə böyük ehtiyac duyduqlarını çox gözəl bilərək,

doğma balaları kimi sevdiyi tələbələrilə 50 illik sənət yolunda qazandığı təcrübəsini böyük səxavətlə paylaşırdı.

Şövkət xanımın şagirdlərinin böyük müğənni haqqında xatirələri də dediklərimizin əyani sübutudur. Bu nəcib xanımın simasında böyüklükdə təkrarı olmayan "ana" və "müəllim" məfhumları cəmləşmişdi. Bu isə çətin olduğu qədər şərəfli idi

Sevimli müəlliminin xatirəsini əziz tutan tələbəsi Aybəniz Haşımova Şövkət xanımla bağlı verdiyi müsahibələrdə dəfələrlə Şövkət xanımın internat yetirmələrinə ana nəvazişiylə yanaşdığını, uşağlara yanlarında valideynlərinin olmamasını hiss etdirmədiyini, bayramlarda onları evinə çağırıb, süfrə açdığını və öz əliylə uşağlar üçün plov dəmlədiyini qeyd edib. Bununla yanaşı, minnətdar tələbə olan Aybəniz xanım Şövkət xanımın bir müəllim kimi çox tələbkar olduğunu, onun baxışlarından belə qorxduqlarını, amma buna baxmayaraq, tələbələrin müəllimlərini çox sevdiklərini vurğulayıb.

Şövkət xanımı səciyyələndirən cəhətlərdən biri də onun sözünün arxasında dura bilməsi idi. Balalarıyla da, əqidə yoldaşlarıyla da, seçiciləriylə də həmişə lətafətli və nəzakətliydi bu xanım.

Şövkət xanım çox nikbin bir insan idi. Ona baxanlar elə bilərdilər ki, heç vaxt heç nədən narazı qalmır. Amma əslində o, sadəcə olaraq, qarşısında duranların könlünə dəymək istəməzdi, hamını şirin dillə dindirərdi. Geniş ürəyə malik bir insan idi. Bunu təsdiq edən misallar sonsuzdur. Elə götürək onun öz qardaşlarının balalarına göstərdiyi münasibəti. "Bibi"lik nümunəsi olan Şövkət xanım Böyük Vətən Müharibəsində həlak olan qardaşı Ələkbərin qızı Validəni səkkiz aylığından öz yanına götürüb, ona ana olmuşdu. O biri qardaşı Şəfinin qızı Sevdanı, oğlu Eldarı da bibi böyütmüşdü. Onların hamısına savad verib, ailə qurmaqda köməklik göstərmişdi. Daima qohum-əqrəbanın, dost-tanışın dadına çatan bir insan idi Şövkət xanım.

Şövkət xanım təbiətcə həddən artıq sadə və təvazökar idi. Onun xasiyyətinə məxsus bu xüsusiyyətlər insanlarla ünsiyyətində

özünü çox qabarıq şəkildə biruzə verirdi. Şövkət xanımın nadir xüsusiyyətlərindən biri o idi ki, əsl xanım olan bu insan böyüklə-böyük, uşaqla – uşaq olmağı bacarırdı.

Məlumdur ki, cəmiyyətdə kişi mərdliyi ilə seçilib sayılan xanımlar var. Bizim Şövkət xanım belə insanlardandır. Sözü bütöv, dostluqda möhkəm, fikir yürütməkdə ürəkli olan başı bəlalar çəkmiş, mərdliyi qədər zərif, zərifliyi qədər mərd bir qadın.

Şövkət Ələkbərova son dərəcə güclü bir şəxsiyyət idi. Onun həyat yolu heç də hamar olmamışdı. Həyatın onun qarşısına çıxartdığı faciələr (həyat yoldaşı - Lətif Səfərovun qəfil dəhşətli ölümü, qızı - Natellanın ağır xəstəlikdən sonra vaxtsız həyatdan köçməsi), üstəlik səhnə fəaliyyətində onun qarşısında süni surətdə yaradılan çəpərlər bir qadının çiyinlərində qaldırılası yük deyildi. Məhz qızı Natellanın ölümü Şövkət xanımın səhhətini çıxılmaz vəziyyətə saldı. Amma xəstəliyinin ağırlığına baxmayaraq, 1990-cı il yanvarın 20-də Almaniyada müalicədə olan Şövkət xanım son qüvvəsini toplayaraq xalqına yardım göndərmək məqsədilə oradakı Azərbaycan cəmiyyətinin təşkil etdiyi xeyriyyə konsertlərini verdi. Müğənni iki gün dalbadal yataqdan qalxıb səhnəyə çıxdı. Bunu ancaq güclü şəxsiyyət edə bilərdi.

Şövkət xanım Ələkbərovanın yaradıcılığı Azərbaycanın musiqi ifaçılığına elə bir töhfə olmuşdur, sənət tarixində elə bir dərin iz qoymuşdur ki, qərinələr dəyişsə də, Şövkət xanıma və onun ifaçılıq irsinə olan sevgi və pərəstiş dəyişməyəcək. 1993-cü il fevral ayının 7-də Azərbaycan qəlbi nəğmələrlə yoğurulan bir övladını, mələk kimi uçub gedən Şövkət Ələkbərovanı itirdi. O, Şövkət xanım ki, tarixdə öz yerini tutmuş nadir şəxsiyyət bizim üçün, xalqımız üçün, bütün dünyada olan Şövkət sənətinin pərəstişkarları üçün daima sağdır.




**Yubiley Tədbirlərinin keçirilməsi:**

Milli musiqimizin gözəl ifaçısı, xalq artisti Şövkət Ələkbərovanın 100 illik yubileyi ilə bağlı silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulur. Keçirilən tədbirlərdə müğənni Şövkət Ələkbərovanın bir müğənni və musiqi pedaqoqu kimi həyat və fəaliyyətdən, xidmətlərindən bəhs edən metodiki vəsaitin də hazırlanmasını qarşımıza məqsəd qoymuşuq. Məqsədimiz Şövkət Ələkbərova yaradıcılığını geniş şəkildə təbliğ etmək, çoxillik ifaçılıq fəaliyyətini gələcək musiqiçilərə, oxuculara çatdırmaqdan ibarətdir.
Elə bu məqsədlə F. Köçərli adına Respublika Uşaq Kitabxanası olaraq, yubileylə bağlı tədbirlər planı hazırlamışıq. Plana əsasən kitabxanada ilk öncə kitab və foto sərgi təşkil olunur.Sərgi kitabxananın oxu zalında təşkil olunur. Sərgiyə gələn qonaqlar ilk əvvəl sərgi ilə tanış olur daha sonra müğənni Şövkət Ələkbərova haqqında hazırlanmış slaydla tanış olurlar.
Sərgi müxtəlif başlıqlar altında təşkil oluna bilər. Məsələn: “Unudulmaz müğənni”, “Bir gözəl oxuyardı”, “Hara getsən apar məni”, “Bir könül sındırmışam”, “Oxu gözəl”, “Ölməz sənətkar- Şövkət Ələkbərova”, “Söz olmasaydı”, “Bir şəklin tarixçəsi” və s.
Sərginin nümunəsini sizlər üçün təqdim edirik:

1. Başlıq: “Unudulmaz müğənni-Şövkət Ələkbərova 100”,

**2.** *Sitat: Mən oxuduqca yaşamaq, yaşadıqca yaratmaq istəyirəm.*

***Şövkət Ələkbərova***

3. Kitablarının nümayişi
4. Dövrü mətbuatda çap olunmuş məqalələrin kartotekası
5. Görkəmli insanların və musiqişünasların Şövkət Ələkbərova haqqında söylədikləri.

**6.** Şeir parçası

**Şövkət cəh-cəh vuran ana bülbülüm,**
**Elə yandırsın ki, qalmasın külüm.**
**Başına tac olsun, çiçəyin, gülün,**
**Qoy dönüb bir nəhrə ümmana gəlsin.**

**Şair Tofiq Bayram**

**Səsindən boylanır bir nazlı uğur,**
**Səs mənim uğurlu qüdrətimdədir.**
**Üzünü Təbrizə tərəf tut oxu,**
**Təbriz Şövkətinin həsrətindədir**

**Şair Söhrab Tahir**

# Foto sərgi










BİR XUMAR
BAXIŞLA
Şövkət
Ələkbərova














Şövkət Ələkbərova - Tez Gəl
Söz: Zeynal Cabbarzadə
Mus: Tofiq Quliyev


Azvision.az
Azvision.az


AzTV



**Görkəmli insanların Şövkət Ələkbərova haqqında söylədikləri.**

1.Şövkət xanım Azərbaycan musiqisində bir epoxaydı. Onun oxuduğu hər bir mahnı dillər əzbəri olurdu, xalqın ağzına düşürdü.

**Xalq artisti, Polad Bülbüloğlu**

2. Bilmirəm Şövkət xanımın yerini kim nə vaxt tutacaq. Ancaq bir şeyi bilirəm ki, Şövkət xanımın sənəti Azərbaycan xalqının xatirəsində əbədi yaşayacaq!

**Bəstəkar, Tofiq Quliyev**

3. Şövkət xanımın səsindən olmazdı: zili də, bəmi də gözəl idi. Belə gözəl, bənzərsiz səs hər adamda olmaz. İnsan kimi də Şövkət xanım əvəzsiz idi; mehriban, insanlara əl tutan, qayğı göstərən. Biz bəstəkarlar hamımız ona minnətdarıq. Hamımız çalışırdıq ki, mahnılarımızı Şövkət xanım oxusun.

**Bəstəkar, Şəfiqə Axundova**

4. Mən çox müğənnilər müşayiət etmişəm, amma heç bir qadın müğənnidən belə dəyərli səs eşitməmişəm. Şövkət xanımın səsində sanbal var: gözəl zəngulələr, melizmlər, çalarlar vardı, özünəməxsus "boğazlar" vardı.

**Xalq artisti, Şəfiqə Eyvazova**

5. Şövkət xanımı başqalarından fərqləndirən cəhətlər çoxdur. Qadınlar içərisində deyərdim ki, Şövkət xanım milli musiqimizin kralı, şahı idi.

**Əməkdar artist, xanəndə Sabir Mirzəyev**

6.Fikrət Əmirov, Cahangir Cahangirov, Tofiq Quliyev, Emin Sabitoğlu... bütün bəstəkarlar mahnı yaznda Şövkətə müraciət edirdilər. Çünki onlar inanırdılar ki, Şövkət onların mahnılarını öz oxumağıynan, səsiynən daha da gözəlləşdirəcək. Bəstəkarların hamısı Şövkətin boğazına, nəfəsinə, səsinə vurğun idilər. Əvvəl Şövkət çıxarırdı o mahnıları meydana. Heyif Şövkətdən! Yeri görünür.

**Xalq şairi, Əminə Dilbazi**

7.Sevimli xanımlar xanımı! Sizin ruhunuz bu gün bizimlədi, buradadı. Siz bu günlər sevinirsiniz. Çünki sizin sənətiniz yaşayır. Sizi xalq sevir, və sevəcək. Mən sizin böyük sənətiniz qarşısında baş əyirəm.

**Xalq artisti, Xuraman Qasımova**

8.Oxu, Şövkət, oxu Şövkət, qoy səsin
Ürəklərdə kaman kimi titrəsin

**Xalq artisti, Gülağa Məmmədov**

9.Dəfn edin siz məni "Zabul-segah"ın mayəsinə,
Deyirəm, bəlkə, məni bir gün oyandırdı muğam.

**Xalq şairi, Bəxtiyar Vahabzadə**

10.Şövkət Ələkbərova Azərbaycan musiqisinin ən görkəmli sənətkarlarından biridir. Təbiət Şövkət Ələkbərovaya gözəl, çox məlahətli səs, istedad bağışlayıb. Bəstəkarların əksəriyyəti çalışır ki, onların yeni mahnılarının ifaçısı Şövkət Ələkbərova olsun.

**Bəstəkar, Tofiq Quliyev**

11.Mən Şövkət xanımla bağlı xatirələrimi illərlə danışsam qurtarmaz. O, bənzərsiz müğənni və əvəzsiz insan idi.

**Xalq artisti, Sara Qədimova**

12.“Şövkət xanım mənim də bir çox mahnılarımın ilk ifaçısı olmuşdur. O, mahnı üzərində işləyərkən bəstəkara yaxından kömək edir, mahnının daha gözəl çıxması üçün əlindən gələni edir”.
Şövkət xanım Azərbaycanın ifaçılıq sənətinin ən parlaq nümayəndələrindən biridir. Onun özünəməxsus, gözəl tembrə malik səsi var.

**Bəstəkar, Vasif Adıgözəlov**

13. Şövkət xanımın ifasında bir neçə mahnım səslənib. O, mahnını sadəcə olaraq qiraət etmir, bu mahnıları yaşaya-yaşaya, yarada-yarada oxuyurdu. Necə deyərlər, mahnının arxitektonikasını yaradırdı. Buna görə də mən cəsarətlə Şövkət Ələkbərovanı bəstəkar təbli nəğməkar adlandırıram.

**Bəstəkar, Fikrət Əmirov**

14. Muğamat, xalq mahnılarımızın və Azərbaycan bəstəkarlarının qəlboxşayan mahnılarını, romanslarını ifa edən sənətkarlar arasında öz səsi, öz nəfəsi ilə seçilən qadın ifaçılarımızın xanı, sevimli müğənnimiz Şövkət Ələkbərovadır. Bir bəstəar-müəllif kimi, “Vətənimdir” (M.Füzuli), “Neylərəm” (İ.Nəsimi), “Vağzalı çalınır”, (T.Bayram), “Bilsəm sən gələrsən” (Z.Həmidoğlu), “Neftçi qız” (N.Gəncəli) romans və mahnılarımı Şövkət Ələkbərovanın ifasında dinlərkən, onda bir çox müğənnilərə xas olmayan cəhəti hiss etmişəm.

**Bəstəkar, Süleyman Ələsgərov**

15. Şövkət xanımın ifasında bir neçə mahnım səslənib. O, mahnını sadəcə olaraq qiraət etmir, bu mahnıları yaşaya-yaşaya, yarada-yarada oxuyurdu. Necə deyərlər, mahnının arxitektonikasını yaradırdı.  Buna görə də mən cəsarətlə Şövkət Ələkbərovanı bəstəkar təbli nəğməkar adlandırıram.

**Bəstəkar, Emin Sabitoğlu**

16. "Şövkət xanım mənim mahnılarımı qəlbim istəyən kimi təfsir eləyir, onunla mahnı üzərində işləmək əsl yaradıcılıq işidir. O, bəstəkarı dərindən duyur, nüansları fövrən qavrayır".

**Bəstəkar, Cahangir Cahangirov**

17. Ömrümün sonunadək ustadlarıma, özümə verilən dəyərə, qayqı, diqqətə görə xalqımıza, dövlətimizə minnətdaram. Bu ildə, həmişə olduğu kimi ustadımın dogum gününə böyük həvəslə hazırlaşıb, tələbələrimlə onun 100 illik yubileyinə böyük töhvələr vermək arzusundayam.

Ümüd edirəm ki, Allah o böyük günü mənə görməyi nəsib edəcək. Amin!"

**Xalq artisti, Aybəniz Haşımova**

18."Mən Şövkət xanıma qayınana kimi baxmamışam. Mən həmişə ona Azərbaycan Xalq artisti Şövkət Ələkbərova kimi baxmışam. Bizim aramızda çox böyük hörmət olub. Mən onu həmişə "Şövkət xanım" deyə səsləyirdim.

**Gəlni, Gülnarə Səfərova**

Əsl müğənni, əsl sənətkar ömrü ozan ömrünə bənzəyir. Şövkət xanım da ozan ömürlü sənətkar idi. O, odlar yurdunu oymaq-oymaq, oba-oba, mahal-mahal dolaşmışdı. Ona günəşin yandırıb tunca döndərdiyi pambıqçı qızlar da qulaq asmışdı, yazıçı, alim də, çiyni yapıncılı çobanlar da dinləmişdi, neftçilər də. Hər kəs də müğənninin səsindən, nəğməsindən öz payını götürmüşdü. Və elə bu qənaətə gəlmək olur ki, Şövkət xanımın səsi mənəvi sərvətimizdir, və bu sərvət heç vaxt tükənməyən bir sərvətdir.

Əsl müğənninin səsi isə heç vaxt qocalmır, əksinə zaman keçdikcə cilalanır, püxtələşir, büllurlaşır. Şövkət Ələkbərovanın

səsi də ömrü boyu qocalmadı. Ona görə ki, ustad bir müğənnin kimi fəaliyyətini heç vaxt dayandırmamışdı.

Fəxarət hissi ilə demək olar ki, bu gün artıq Şövkət Ələkbərova sənətinin varisləri, davamçıları vardır.

Görkəmli sənətkar, Xalq artisti Şövkət Ələkbərovanın yubileyi ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərdən biri də kitab icmalıdır. Tədbirə yazıçı, şair, musiqişünaslar, ali və orta məktəb tələbə və şagirdləri dəvət alır. Bildiyiniz ki, məşhur müğənninin həyat və yaradıcılığı haqqında bir çox kitab, məqalə yazılıb. Buna misal olaraq bu gün biz kitabxanamızın fondunda yer alan Mustafa Çəmənlinin Şövkət Ələkbərova haqqında yazdığı kitabı misal göstərə bilərik.  İcmalını keçirəcəyimiz kitab "Şərq-Qərb" nəşriyyatı tərəfindən 2017-ci ildə çap olunub.

Kitabda xalqımızın sevimli sənətkarı, görkəmli vokal ustası, Azərbaycan Respublikasının Xalq artisti Şövkət Ələkbərovanın həyat və yaradıcılığından, onun böyük səhnə fəaliyyətindən, ifaçılıq və gözəl insani keyfiyyətlərindən bəhs olunur.

Həmçinin kitaba vaxtilə müğənni ilə yaradıcılıq ünsiyyətində olan musiqiçilərin, doğmalarının xatirələri də daxil edilmişdir.

Onu da qeyd etmək yerinə düşərdi ki, kitabı böyük şövq, həvəslə araya-ərsəyə gətirən yazıçı Mustafa Çəmənli kitabın "Şövkət Ələkbərova xatirələrdə" adlı bölümündə belə yazır: Nə gizlədim, bu kitabın üzərində işləyərkən ürəyimdə mənəvi bir rahatlıq hissi keçirirdim: nə yaxşı ki, ayrı-ayrı vaxtlarda Şövkət xanımla bir yerdə çalışmış, qastrol səfərlərində olmuş sənətkarların, tələbələrini, onun doğmalarını danışdırıb xatirələrini yazmışam. Bu xatirə-söhbətlərin bir qismini dövrü mətbuatda çap etdirmişəm. Təəssüflənirəm ki, vaxtilə xatirələrini qələmə aldığım sənətkarlarımızdan Şəfiqə Axundova, Əminə Dilbazi, Ramiz Hacıyev, Sabir Mirzəyev, müğənninin qardaşı qızı Validə Hüseynova dünyalarını

dəyişmişlər. Onların Şövkət xanımla bağlı hər kəlməsi bu gün çox dəyərlidir. Və artıq məxəzə çevrilmişdir. Buna grə də bu xatirələrdə əlavə bir düzəliş etmədim.

Canlı danışıq dilindən köçürülmüş, dialoq üzərində qurulmuş bu xatirə-söhbətlərdən Şövkət xanımın şəxsiyyəti, dünyagörüşü, insani münasibətləri, yaradıcı mühiti,fikrimizcə çox aydın görünür.

Kitabda "Son vida" sərlövhəsi altında isə Şövkət Ələkbərovanın dəfn mərasimində çıxış edən sənətkarların vida nitqindən fraqmentlər də dərc olunmuşdur.

Zaman ötüb keçdikcə gələcək nəsillər onun səsini dinləmək imkanı əldə etdikləri kimi, bu kitabı oxumaqla da Şövkət Ələkbərova dünyasına daha yaxından bələd olacaqlar.

Tədbir Şövkət Ələkbərova yaradıcılığını yaxından izləyən, onun sənətinə pərəstiş edən musiqişünasların, dostların, qohumların  çıxış və məruzələri ilə daha maraqlı və yaddaqalan keçirilir.

Sonda Şövkət Ələkbərovanın ifasında "Bir könül sındırmışam" mahnısı səslənir. Azərbaycan musiqisinin görkəmli sənatkarlarından olan Şövkət Ələkbərovanın 100 illiyi ilə bağlı keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecəyə kitabxançı iki ay qabaqcadan hazırlaşır. İlk öncə keçirilən tədbirin planı tutulub, ssenarisi hazırlanır. Tədbirdə iştirak edən qonaqlar müəyyənləşdirilir. Tədbirə xanəndənin sənət yoldaşları, musiqişünaslar, Milli konservatoriyanın tələbə və müəllim heyəti, orta və musiqi təmayüllü məktəbin şagirdləri, oxucular dəvət olunur. Tədbir müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, "Unudulmaz müğənni-Şövkət Ələkbərova".

Səhnə gül dəstələri ilə bəzədilir. Müğənninin portreti səhnənin divarından asılır. Tədbir Şövkət Ələkbərovanın "Dərələr" mahnısı ilə başlayır.

**I aparıcı:** Biri vardı, biri yoxdu, Bakının Mirzə Fətəli Axundov küçəsi və o küçənin də o üz-bu üz sıralanmış müxtəlif biçimli,

müxtəlif görümlü, memar əli görməmiş, usta əli dəyməmiş qəribə-qəribə evləri (indi də var), o evlərin də kitaba-dəftərə düşməmiş öz adı, öz ünvanı vardı. Bu evlərin sırasında, müxtəlif biçimli, müxtəlif görümlü binaların arasında bir "nəğməli ev" də vardı. O nəğməli ev Feyzulla kişinin eviydi. Bu gün Azərbaycan Respublikasının Xalq artisti kimi tanıdığımız, sevimli müğənnimiz Şövkət Ələkbərova 20 oktyabr 1922-ci ildə Feyzulla kişinin o nəğməli evində dünyaya göz açmışdı. Unudulmaz sənətkar Asəf Zeynallı adına Musiqi Məktəbində Hüseynqulu Sarabskinin sinfini bitirdikdən sonra səhnə yaradıcılığına başlayıb. 1938-1945-ci illərdə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblında solist kimi çalışan sənətkar, sonralar M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti olub. Şövkət Ələkbərovanın ifaçılığı üçün yüksək vokal mədəniyyəti, emosionallıq və lirizm, muğam yaradıcılığı üçün isə məharətli improvizasiya bacarığı səciyyəvi idi.

Üzeyir Hacıbəyli, Səid Rüstəmov, Bülbül kimi sənətkarların diqqətini çəkərək onların xeyir-duasına alan Ş.Ələkbərova ömrünün sonunadək ifası ilə özünü sübut etməklə yanaşı, sənətə əsl sənətkar kimi xidmət göstərib. Onun "Qarabağ şikəstəsi"ni məlahətli səsi ilə mükəmməl səviyyədə ifa etməsi peşəkar musiqi sənətinə gəlişinin əsasını qoydu. Şövkət Ələkbərovanın ifasında səslənən xalq mahnıları, muğamlar, bəstəkar mahnıları Azərbaycanda çox böyük məşhurluq qazandı.

Dünyanın bir çox şəhərlərində uğurla çıxış edən Şövkət Ələkbərovanın repertuarına "Segah", "Qatar", "Şahnaz" kimi muğamlar, Azərbaycan bəstəkarlarının və Orta Şərq xalqlarının mahnıları daxil idi. Şövkət xanım haqqında bir çox bəstəkarlarımız, o cümlədən Tofiq Quliyev, Arif Məlikov, Cahangir Cahangirov, Ramiz Mirişli və başqaları öz xatirələrini bölüşüblər. Bu sənət adamlarının dediklərində bir ümumi xətt var. O da Şövkət xanımı əsl professional kimi xarakterizə

etməkdir. Burada ümumi bir fikirlə də rastlaşırıq: “Şövkət Ələkbərova istər xalq lirik mahnılarının, istərsə də bəstəkarlarımızın yaratdıqları lirik mahnıların bənzərsiz ifaçısıdır”.

“Dərələr”, “Ağ çiçəyim”, “Bir könül sındırmışam”, “Gedək üzü küləyə”, “Ağlaya-ağlaya”, “Haradasan”, “Məhəbbət”, “Tez gəl”, “Süsən sünbül”, “Dəli Ceyran”, “Ay qadası”, “Yar gəldi”, “Kürdün gözəli”, “Ceyran” və digər onlarla mahnı böyük sənətkarın ifasında möhürlənib. Şövkət xanımın repertuarında olan mahnılarda söz, musiqi və ifa bir-birini tamamlayaraq, vəhdət təşkil edib. Elə buna görə də, müğənninin ifa etdiyi mahnılar ilk ifadan dinləyicilərin ürəklərinə yol taparaq yaddaşlarda dərin iz buraxıb. Onun konsertlərində iştirak edən insanlar etiraf edirlər ki, Şövkət Ələkbərovanın mahnıları dillər əzbəri olduğundan tamaşaçıların dodaqlarının tərpənməsini müşahidə etməmək mümkünsüz idi. Oxucular səhnəyə daxil olur, Söhrab Tahirin “Sənin səsin” şeirini söyləyirlər.

Səsindən boylanır bir nazlı uğur,
Səs mənim uğurlu qüdrətimdədir.
Üzünü Təbrizə tərəf tut oxu,
Təbriz Şövkətinin həsrətindədir.

Bağımda nə qədər nərgiz yetirsəm,
Səsin baxışındır, sənin əksindir.
Dünyada nə qədər lalə bitirsə,
Hamısı, hamısı sənin səsindir.

Oxu Dərələr”i, ucalt dağlara,
Dağlar dərələri qucmaq istəyir.
Ovcunu yapışdır al yanaqlara,
“Ağ çiçək” ovcunda açmaq istəyir...

**II Aparıcı:** Təbiətin müğənniyə verdiyi ən böyük hədiyyə onun səsidir. O, yenicə əkilən bir ağaca bənzəyir. Əgər onun sahibi bu ağaca vaxtı-vaxtında qulluq etsə, ağac qol-budaq atıb, bar verər. Şövkət xanıma bəxş olunan səsi başqalarından seçən onun xüsusi məlahəti və gözəl tembrə malik olması idi.

Şövkət xanım təbiətin qarşısında borclu qalmadı. Ona verilən hədiyyənin qiymətini bildi, səsini qorudu, öz üzərində hər gün işlədi. Gözəl səsi də ona sədaqətli qalaraq yarım əsr müğənninin üzünü ağ etdi. Nəticədə Şövkət xanımın ifaçılıq sənəti böyük bir məktəb oldu. İbrətə layiq bir məktəb.

Həmişə bənzərsiz ifa tərzindən söz açılanda gözümüzün önündə Şövkət xanımın sönməz obrazı durur. Xoşbəxt müğənni obrazı. Bu, biz dinləyicilərin də xoşbəxtliyidir desək yanılmarıq.

Azərabaycanın radio və televiziyasının qızıl fondunda Şövkət xanımın yarım əsr ərzində oxuduğu misilsiz sənət nümunələri saxlanılır. İnanmaq istərdik ki, musiqi tariximizin bu inciləri qayğıkeşliklə qorunub gələcək nəsillərə ötürüləcək.

Düzdür, bu gün biz onilliklər məsafəsindən Şövkət Ələkbərova sənətinə qiymət verə bilərik. Lakin bu sehrli səsin əsl qiyməti hələ daha uzun zaman keçdikdən sonra veriləcək. Və biz əminik ki, zaman ötdükcə, Şövkət xanımın ölməzliyə qovuşan sənəti yaşayacaq. Şövkət xanımın ömrü ləyaqətli insan olan oğlu Bəşirin, nəvələri Fərhad, Fərid və Fuadın, yeganə qız nəvəsi olan, nənəsinin adını dayışan balaca, zərif gülə bənzər Şövkətin, nəticələri Natella və Ayanın ömürlərində davam edəcək. Bu isə o deməkdir ki, Lətif Səfərovun və Şövkət Ələkbərovanın ocağı heç bir zaman sönməyəcək.

Məhz xalqın sevgisi Şövkət xanımı ölməzlik zirvəsinə çatdırmışdır. Onun gözəl səsi bu gün də xalqımızın xidmətində, sənət qədrini bilənləri məftun etməkdədir.

Şövkət xanım o nadir şəxsiyyətlərdəndir ki, sağlığında özü haqqında xoş təəssürat, dünyasını dəyişəndən sonra isə xoş xatirələr qoyub. Bu isə insanın fətr etdiyi ən yüksək zirvədir.

Karvan-karvan göydən ulduzlar köçür,
Öz bəxtinə hər kəs bir ülkər seçir.
Qocalırıq...Ömür keçir, gün keçir,
Oxu gözəl, oxu gözəl, qoy səsin
Ürəyimdə kaman kimi titrəsin.

Xalq artisti Flora Kərimova Şövkət xanımın həyat və yaradıcılığına həsr edilmiş bir televiziya verlişində tək bircə cümlə işlətmişdi: "Sizin yanınızda mən özümü heç vaxt oxuyan hesab etmirəm, Şövkət xanım". Bu çox böyük etiraf idi.

Şövkət Ələkbərovanın səsindən, sənətindən bəhrələnən istedadlı gənc müğənnilər öz müəllimlərini həmişə belə yüksək qiymətləndirirlər. O, öz tələbələrini ana məhəbbəti, ilə sevib, onlara hər cür qayğı göstərirdi. Onları mavi ekrana, səhnəyə çıxarır, müğənnilik sənətinin sirlərini, səhnə davranışını öyrədirdi.

Bu gün adlı-sanlı müğənnilərimizdən bir çoxu-Aybəniz Haşımova, Aygün Bayramova, Könül Xasıyeva, Almaz Orucova, Firuzə İbadova və bir çox başqaları məhz Şövkət xanımdan ustad dərsi almışlar.

Şövkət xanımın həyatında, əgər belə demək olarsa, mahnı-xatirələr çoxdur. Hər biri bir tale, əbədi, yaşarı bir ömürdü o mahnlar. Bu da çox təbiidir. Çünki o mahnılarda Şövkət xanımın ürəyi çırpınır, əməyi, zəhməti, fitri istedadı qabarıq hiss olunur.

**I Aparıcı:** Musiqimizin "Qızıl mücrüsü"ndə saxlanılan bir çox mahnı və romanslardan, kantatalardan Şövkət xanımın səsi, bir obraz kimi, günəş üfüqdən boylanan sayaq boylanır. O cür mahnılarda o qədər aydınlıq, əyanilik var ki, sanki sübh tüzdən dənizdən çıxıb Xəzəri ilıq şəfəqlərinə qərq etmiş günəşin, oynaşan ləpələrin, lövbər salmış, yaxud harasa şütüyən gəmilərin, tez-tez suya baş vurub yem axtaran qağayıların tamaşasına durmuşuq. "Füzuli", "Nəsimi", "Oxu tar, ''Dərələr''

kimi onlarca mahnı-kantatalar Şövkət xanımın ifasında mahnı-obrazlar səviyyəsinə yüksəlmişdir.

Hanı saçlarımı oxşuyan bir əl,
Bir mehriban nəfəs, bir isti əməl?
Doğrudur, insanlar mənə əl çalır,
Ancaq səadətim yarımçıq qalır.

Şövkət Ələkbərova həm də gözəl müəllimə olub. O, Azərbaycanın hər qarışını diyar-diyar gəzib istedadlı uşaqları seçib Bakıya gətirib. Tələbəsi Aybəniz xanım deyir ki, Şövkət Ələkbərova çox əliaçıq insan olub: Bir dəfə eşitdim ki, Şövkət xanım xəstələnib. Gedib onların qapısının ağzında saatlarla əyləşdim ki, ondan bir xəbər bilim. O, özü də bunu biləndə çox təəccüblənmişdi. Sonralar biz tələbələri onun evinin tez-tez gedib gəlməyə başladıq. O, heç vaxt bizi ac-susuz buraxmazdı. Xalq da, dövlət də onu ürəkdən sevib."

Gün var ki, heç nə ilə əvəz olunmaz, zaman-zaman ömrün ən şirin anı kimi yad edilər, xatırlanar. Şövkət xanımın da yaddaşından heç vaxt silinməyəcək günləri vardı. Xalqımızın sevimli müğənnisi Şövkət Ələkbərovaya 10 noyabr 1954-cü ildə "Əməkdar artist", Azərbaycan incəsənətinin inkişaf etdirilməsi sahəsində və Moskvada Azərbaycan incəsənəti və ədəbiyyatı ongünlüyü ilə əlaqədar olaraq 11 iyun 1959-cu ildə "Xalq artisti" kimi yüksək fəxri ad verilmişdi.

**II Aparıcı:** Bəli, bu böyük, nəhəng sənətkar 1993-cü il fevralın 7-də dünyasını dəyişir. Son müsahibəsini Rafiq Hüseynova verib: "Hər kəsin həyatında narahatlıqlar ola bilər. Mənim həyatımda da olub. Amma bütün bunlara baxmayaraq mən xoşbəxt insanam".



Son günündə yanında ailə üzvlərindən başqa heç kimi istəməyib. O, özünə qapanıb və eləcə də rəhmətə gedib.

Tədbirin sonu musiqisi Emin Sabitoğlu, sözləri Nəbi Xəzriyə, ifası isə Xalq artisti Şövkət Ələkbərovaya aid "Ağ çiçək" mahnısı ilə bitir.

**Səhər çağı...Göy meşədən**
**Dərdim səni, ağ çiçək!**
**Bəyaz-bəyaz varaqlara**
**Sərdim səni, ağ çiçək.**

**Birdən-birə ağ əllərdə**
**Təzələndin, ağ çiçək!**
**Ağ əllərdə elə bil ki,**
**Ağ atəşdin, ağ çiçək!**
**Çiçək, çiçək, ağ çiçəyim,**
**Ömrümə bəzək, ağ çiçəyim!**

**Gördüm səni bu gün başqa**
**Bir şəməndə, ağ çiçək!**
**Ağ əllərin hərarəti**

**Yoxmu səndə, ağ çiçək!**

**Soyuq-soyuq boylanırsan,**
**Söylə, neçin ağ çiçək?**
**De, səndəmi həstətlisən**
**Ağ əllərçin, ağ çiçək?!**

Tədbirin sonunda qonaqlar Xalq artisti Şövkət Ələkbərovanın Fəxri xiyabandakı məzarını ziyarət edib, önünə gül dəstələri qoyublar.

**Yekun**

Bəli, Şövkət Ələkbərovanın dünyasını dəyişdiyi çağdan çox illər ötsə də, heç vaxt unudulmayıb. 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Şövkət xanımın 90 illik yubileyi keçirilib. Vəfatından sonra xatirəsinin əbədiləşdirilməsi üçün yaşadığı binaya barelyefi həkk olunub. "Palmali" Şirkətlər Qrupunun sahibi, həmyerlimiz Mübariz Mənsumovun təşəbbüsü ilə "Şövkət Ələkbərova" adına tanker suya buraxılıb. Bu tanker 7 min ton yükgötürmə qabiliyyətinə malikdir.

Sən günəş, mən isə bir zərrə kimi,
Diriykən oğlunam, ölsəm-torpağın.
Sən ki, döyündürdün mənim qəlbimi,
Sən uca çinarsan, mənsə-yarpağın.
Mənəm sənin özün, ey eşqim, canım,
Sənsən özüm mənim, Azərbaycanım!

Hər bir şeyin əvvəli və sonu var. Bu gün Şövkət xanım yoxdur, haqq dünyasına qovuşub. Bu da o böyük Allahın buyurduğudur; bir gün gələn, bir gün də bu dünyanı tərk etməlidir. Gedənlər, təbii ki, özləri ilə heç nə aparmırlar. Bu

dünyada qazandıqlarını elə bu dünyada da qoyub gedirlər. Kim var-dövlət, kimi də yaxşı, pis əməllərini...
Şövkət xanım bu dünyaya gəldiyi kimi, bir qış səhərində bizi tərk etdi. Ondan nə ləl-cəvahirat, nə də mal-mülk, miras qaldı. Ancaq Şövkət xanım bizə SƏS adlı bir dünya qoyub getdi. Dünya boyunca da bu SƏS qalacaq. Bütün rəng-boyası, axar-buxarı ilə. Nəsillər bir-birini əvəz edəcək, amma Şövkət xanımın bu dünyada qoyub getdiyi SƏSİ heç zaman köhnəlməyəcək, həmişə tər çiçəyə, təbiətdən rəng almış qövsi-qüzehə bənzəyəcəkdir.

Şövkət xanım cismən bizi tərk etsə də, oxuduğu mahnılar, muğamlar həmişə bizimlədir. Ş.Ələkbərova 1993-cü il fevralın 7-də 70 yaşında vəfat edib.

Musiqidə belə bir məqam var ki, xalq tərəfindən sevilən mahnılar zaman keçdikcə xalq mahnıları kimi qəbul olunur. Sözsüz ki, belə mahnıları yaradan sənətkarlar üçün bu, böyük xoşbəxtlikdir. Şövkət xanımın ifa etdiyi mahnılar məhz bu qəbildən idi. Onun mahnıları səsləndikcə Şövkət xanımı da yaşadacaq.

Nə qədər azərbaycan xalqı var, Şövkət Ələkbərovanın adı hörmətlə çəkiləcəkdir. Əsl sənətkar heç vaxt ölmür. Şövkət xanımın da nəğməli səsi zaman-zaman səslənəcəkdir.

## Ədəbiyyat siyahısı
## Kitablarda

**Çəmənli M. Ş**. Şövkət Ələkbərova. - Bakı : Şərq-Qərb, 2017. - 160 s.

**Əlibəyli Ə**. Nəğmələr. - Bakı : "Nat" MMC, 2016. - 72 s.

**Hidayətqızı S.** Muğam qəsri. II kitab : Sarı sim : Yüz muğam bilicisindən müxtəlif illərin müsahibəsi 2000-2016. - Bakı : Apostrof, 2016. – S. 232-237.

## Dövrü mətbuatda

**Abbaslı T**. Total-vakal layla xanım // Mədəniyyət. - 2012. - 19 oktyabr. - **№ 76**. - S. 11.

**Ağayeva G**. Ecazkar səsi ilə ölməzlik qazanmış böyük sənətkar // Palitra. - 2012. - 23 oktyabr. - **№ 117**. - S. 13.

**Ağayeva G**. Ecazkar səsi ilə ölməzlik qazanmış böyük sənətkar : Azərbaycanın xalq artisti, istedadlı müğənni Şövkət Ələkbərova haqqında // İki sahil. - 2012. - 23 oktyabr. - **№ 195**. - S. 30.

**Bünyadov T**. Muğamlarımız həqiqətmi, möcüzəmi, nağılmı // Yeni Mədəni-maarif jurnalı. - 2008. - № 8. - S. 43-46.

**Hüseynov Ə**. Əbədi yaşamaq haqqı // 525-ci qəzet. - 2022. - 15 aprel. - **№ 65**. - S. 10.

**Xəlilzadə F**. Bir gözəl oxuyardı : Şövkət Ələkbərova - 140 // Azərbaycan. - 2012. - 23 oktyabr. - **№ 238**. - S. 7.

**İradə.** Gözəllik mücəssiməsi // Mədəniyyət. - 2012. - 24 oktyabr. - **№ 77**. - S. 13.

**Qaramollayeva K**. Şövkət Ələkbərova yaradıcılığına nəzər : Şövkət Ələkbərova - 90 // Mədəni həyat. - 2012. - **№ 11**. - S. 65-67.

**Qoca E**. Danışan şəkillər // Yada düşdü. - 2022. - **№ 1**. - S. 24-32.

**Qurbanlı R**. Ürəkləri kaman kimi titrədən səs : Şövkət Ələkbərova haqqında // Azərbaycan : qəzet. - 2021. - 4 aprel. - **№ 68**. - S. 6.

**Mükərrəmoğlu M.** Səsin sehri : Şövkət Ələkbərova - 95 // Xalq qəzeti. - 2017. - 5 noyabr. - **№ 244**. - S. 7.

**Mükərrəmoğlu M.** Yaşayan və yaşadan səs : Şövkət Ələkbərova - 90 // Azərbaycan. - 2012. - 21 oktyabr. - **№ 237**. - S. 7.

**Musiqi təqvimi: :** Ağ çiçək : **Şövkət Ələkbərova** // Göy qurşağı. - 2007. - sentyabr-oktyabr. - S.12-13.

**Nizamiqızı H**. Qırmızı səhnənin bəyaz çiçəyi // Mədəniyyət. - 2012. - 15 fevral. - **№ 10**. - S. 9.

**Vahid T**. Unudulmaz sənətkar və unudulmayan mahnılar // Mədəniyyət. - 2012. - 16 noyabr. - **№ 83**. - S. 3.

**Oxu, Şövkət, oxu Şövkət, qoy səsin,**
**Ürəklərdə kaman kimi titrəsin.**

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**